Tarix və onun problemləri, №3 2009

MƏMMƏD FƏTƏLİYEV
*Bakı Dövlət Universitetinin professoru*

# LOZAN KONFRANSINDA PATRİARXLIQ MƏSƏLƏSİ

Lozan konfransında müzakirə edilən mühüm məsələlərdən biri də Patriarxlıq məsələsi idi. Danışıqların gedişində türk nümayəndə heyəti bəzi məsələlərdə müəyyən kiçik dəyişikliklər edilməsinə razılıq versə də, Patriarxlıq məsələsində qətiyyən güzəştə getmirdi.

Türk nümayəndə heyəti Patriarxlığın zərərli fəaliyyəti və qatıldığı bəzi hadisələr barəsində Lozan danışıqlarında açıqlama verdilər. Türklər Patriarxlığın dünya işlərinə əl atması, siyasi işlərə qarışması, nəhayət «dövlət içində dövlət olmaq» hüququnu qazanmaq istəməsinə görə beş əsrdən bəri davam edən və qanqrena halına gəlmiş bu fəsad ocagını söndürmək, türk millətinin sinəsindən söküb atmaq qərarında idilər Bu səbəbə görə onlar Patriarxlığın ləğv edilməsini və ya İstanbuldan xaricə köçürülməsini tələb edirdilər (16, 262-263).

1922-ci il dekabrın 16-da etdiyi çıxışında Türkiyə nümayəndə heyətinin üzvü Rıza Nur dönə-dönə türklərin Patriarxlıq məsələsində güzəştə getməyəcəyini təkrarladı (3, 87). Türkiyə hökuməti Patriarxlıqdan xilas olmaq istəyirdi, çünki Fənər dövlətin türkləşmə və dünyəviləşmə siyasətinə əks mövqedə dururdu. Alt komissiyanın iclasındakı çıxışında Rıza Nur bildirdi ki, «Patriarxlıq daim siyasi təsir göstərmək fəaliyyətini davam etdirir və son müharibədə keçmiş Osmanlı imperatorluğunun düşmənləri ilə əməkdaşlıq etmişdir» (16, 263). Daha sonra Rıza Nur bildirdi ki, yeni Türkiyə hökuməti «Xilafəti və dövləti bir-birindən ayırmaqla və demokratik regim yaratmaqla Osmanlı imperiyası dövründə qeyri-müsəlman icmalara verilmiş imtiyazları aradan qaldırmış olacaqdır. Azlıqların xeyriyyə, təhsil və filantropik institutları ilə dövlət arasında olan əlaqələr bundan sonra düzgün qurulacaqdır, ruhanilər və iyerarxiya rəhbərləri gələcəkdə özlərini yalnız mənəvi məsələlərlə bağlı olan şəxslər hesab etməli olacaqlar. Əvvəllər siyasi bir təsisat olan Patriarxlıq Türkiyədən kənara çıxarılmalıdır. Çünki onun keçmiş fəaliyyəti yeni şəraitə uyğunlaşmağa mane olacaqdır. Belə ki, yeni şərait Patriarxlığın və ondan asılı olan təşkilatların siyasi imtiyazlarını aradan qaldırmaqla Patriarxlığın gələcəkdə uzun müddət mövcud olması üçün lazım olan bütün vasitələri aradan qaldıracaqdır. Bu şərtlər göstərir ki, ruhaniliyin müvəqqəti imtiyazlarının ləğv edilməsi və ümumdünya Patriarxlığının ölkə xaricinə köçürülməsi Türkiyə üçün vacibdir» (15, 87-88).

Bu fikir 1922-ci il dekabrın 25-də «Le Journal»-a müsahibə verən Mustafa Kamal Atatürk tərəfindən də təkrarlandı. O, bildirdi ki, Xilafətin ləğv edilməsi və Patriarxlığın ölkədən çıxarılması ilə onun hökuməti yeni Türkiyə Respublikasının dünyəvi xarakterini möhkəmləndirəcəkdir (4, 68).

1923-cü il yanvarın 20-də «Hakimiyeti Milliye» qəzetində dərc olunan bəyanatında da Atatürk Patriarxlıq haqqında oxşar fikirlər bildirmişdi: «Bir fəsad və xəyanət ocağı olan və məmləkətimizə nifaq toxumları əkən, münaqişələr yaradan, xristian vətəndaşlarımızın rahatlıq və rifahı üçün uğursuzluğa və fəlakətə səbəb olan yunan Patriarxlığını artıq torpaqlarımız üzərində saxlaya bilmərik... Bu fəsad ocağının həqiqi yeri Yunanıstan deyilmidir?...» (16, 263-264)

1923-cü il yanvarın 4-də alt komissiyanın iclasında Rıza Nur bir daha Patriarxlığın türk torpağından çıxarılmasını tələb etdi. Fənər və Patriarx Meletiosun Ankara rejiminə qarşı düşmən münasibəti türklərin Patriarxlıqdan yaxa qurtarmaq istəklərini in-

tensivləşdirmişdir. Nəhayət, Rıza Nur vurğuladı ki, türklər yunanların İstanbulda qalmalarına razılıq vermək üçün Patriarxlığın köçürülməsini əsas şərt kimi irəli sürürlər» (3, 88).

1923-cü il yanvarın 10-da keçirilən alt komissiyanın iclasında lord Kerzon uzun bir nitq söylədi. O, bildirdi ki, türk nümayəndə heyəti yunan Patriarxlığının ləğv və ya türk sərhədləri xaricinə köçürülməsini tələb edirlər. Bu azqala bütün müzakirələri alt-üst etdi... Patriarxlıq əsrlərdən bəri İstanbuldadır. İlk imtiyazı sultan Fateh vermiş və ondan sonra gələn padşahlar bu imtiyazları təsdiq eləmişlər... Dünyanın hər yerindən bu iş üçün mənə müraciət edirlər. ABŞ belə uzaqda olmasına baxmayaraq, bu işə çox əhəmiyyət verir. Türkiyə Patriarxlığın səlahiyyətini siyasi məqsədlər üçün istifadə etdiyini, Patriarxlığın bir təhrik mənbəyi olduğunu iddia etdi. Əgər bunlar doğrudursa, onda Patriarxlığın siyasi imtiyazlarını dəyişdirmək və ya ləğv etmək üçün səbəb ola bilər, amma Patrikin ruhani və kilsəyə aid imtiyazlarını ləğv etmək üçün səbəb ola bilməz. Əgər din və kilsə səlahiyyətləri yox olarsa mədəniyyət dünyasının vicdanı qanayar» (14, 324).

Lord Kerzon bütün nümayəndə heyətləri adından təklif etdi ki, Patriarxlıq bundan sonra İstanbulda sırf dini bir müəssisə kimi saxlanılsın (9, 296).

Konfrans iştirakçıları Patriarxlıq məsələsində öz etirazlarını bildirməkdə davam etdikləri üçün, türk nümayəndə heyəti də İstanbulun bütün yunan icmasının qovulması məsələsini qaldıracaqı ilə hədələyirdi (3, 88).

Dekabrın 26-da keçirilən iclasda yunan nümayəndələri komissiyaya yazılı bəyanat təqdim edərək, türklərin iddialarının düzgün olmadığını bildirdilər. Onlar iddia edirdilər ki, Türkiyədəki rejimin dəyişməsi hələ Osmanlı imperiyası dövründən xristian əhaliyə verilmiş olan hüquqlara təsir edə və Patriarxlığın ölkədən çıxarılmasına haqq qazandıra bilməz. Yunanlara verilən hüquqların tanınması ölkəni fəth edən müsəlman fatehlərlə fəth edilən xristian əhali arasında mövcud olan din fərqinə görə əmələ gəlmişdir. Osmanlı dövlətində şəriət qanunları işlədiyindən islam qanunlarını xristianlara tətbiq etmək mümkün deyildi. Bu səbəblərdən sultanlar xristianların qanuni dini səlahiyyətləri olan Patriarxlıq tərəfindən tətbiq edilən qədim dini qanunların işləməsini qoruyub saxlamaq üçün onların hüquqlarını tanımışdılar. Tarixi yeri İstanbulda olan bu dini təsisat bütün kilsələrin dini qanunlarının əsasını təşkil edən ikinci və dördüncü ümumdünya şuralarının dekretləri vasitəsilə yaradılmışdı. Ona görə o köçürülə bilməzdi və ancaq yeni Şura onun təyin edilməsi və ya köçürülməsi haqda qərar qəbul edə bilərdi. Hər hansı bir siyasi konfransın bu məsələ haqda çıxardığı qərarın heç bir effekkti ola bilməzdi. Buna görə yunan nümayəndə heyəti Patriarxlığın İstanbuldan köçürülməsinə aid olan müzakirələrdə iştirak edə bilməyəcəklərini bildirdilər. Hətta Patriarxlıq şəhərdən köçürülsəydi belə o yenə də öz titulunu qoruyub saxlayacaqdır (14, 338-339).

Yunanıstan hökuməti Patriarxlığın İstanbuldan köçürülməsi məsələsinə ciddi müqavimət göstərmək qərarında idi. Bəzən yunan rəhbərləri Patriarxlıq üstündə müharibəyə başlamaq niyyətində olduqlarını da bildirirdilər (3, 89).

Şərqi Frakiyanı, İmroz və Tenedozu (Bozçaada) Türkiyəyə təslim edən, əhalinin məcburi yerdəyişməsinə razı olmaq məcburiyyətində qalan yunan hökuməti daha türklərə heç bir güzəştə getmək istəmirdi. Yunan ictimai rəyinin göstərəcəyi münasibətdən doğan narahatlıqla yanaşı, onlar Patriarxlığın köçürülməsinin İstanbul yunanlarının geniş miqyasda köç etməsi ilə nəticələnən böyük çaxnaşmaya səbəb olacağından ehtiyat edirdilər. Anadolu və Şərqi Frakiyadan olan təqribən bir milyon qaçqının yerləşdirilməsi ilə məşğul olan Afina hökuməti daha 300 min yunanın İstanbuldan çıxarılmasından ehtiyat edirdi. Dekabrın 17-də Dövlət şurası Benizelosa məlumat verdi ki, Yunanıstan Patriarxlıq və yunan icmasının İstanbulda qalmasına geniş təminat verməyən

hər hansı bir sazişi imzalaya bilməz (3, 89). Lozandakı yunan nümayəndə heyətinə dekabrın 21-də göndərdiyi ikinci teleqramında Xarici İşlər naziri Apostolos Aleksandris Yunanıstan hökumətinin Patriarxlığın qeyri-dini imtiyazlarına bəzi məhdudiyyətlərin qoyulmasını qəbul etməyə hazır olduğunu bildirdi. Patriarxlığın öz tarixi yerində qalması haqda yunanların qərarı isə öz qüvvəsində qalırdı. Aleksandris iddia edirdi ki, bu məsələdə dünya ictimaiyyətinin mövqeyi yunanların xeyrinədir. Yunan ictimaiyyəti Patriarxlığın aqibəti ilə bağlı çox narahatlıq keçirirdi və əgər düşmənçilik yenidən başlasaydı Frakiyadakı yunan qoşunları Çatalca xəttinə çıxaracaqdılar. Ona görə də hər hansı sonrakı alçaldılmaya dözmək istəməyən yunanlar Türkiyənin yeni şərtlərinə müharibə elan etməklə cavab vermək istəyirdilər (3, 89). 1923-cü il yanvarın 5-də Venizelos Patriarxlıq məsələsi ilə bağlı öz ölkəsinin mövqeyini bir daha təkrarladı.

1923-cü il yanvarın 10-da alt komissiyanın iclasında Venizelos türk nümayəndə heyətinin dəlillərini təhlil edərək bildirdi ki, türklərə görə yunan Patriarxlığı siyasi təsir göstərir, müharibə zamanı Türkiyənin düşmənləri ilə hərəkət edir... Türklərə görə icmalara verilən imtiyazlar dini bir mütləqiyyət idarə sistemi olan Osmanlı imperatorluğunun siyasi vəziyyətindən irəli gəlirdi. Din ilə dövlət ayrıldıqdan və Səltənət ləğv edildikdən sonra din rəhbərlərinin də dini sifətlərindən başqa imtiyazları qala bilməz. Ruhani rəhbərlər icmaların dövlət önündə rəsmi nümayəndələri və hökumət qərarlarının vasitəçiləridir» (9, 296-297). Sözünün axırında Venizelos Patriarxlığın Lord Kerzonun təklif etdiyi şəkildə saxlanılmasını türk nümayəndə heyətindən dilədi (9, 297).

Lozandakı yunan nümayəndə heyətinin Patriarxlıq məsələsində göstərdiyi diplomatik bacarıq heç də həmişə tənqiddən uzaq olmurdu. Belə ki, Türkiyənin Fənər qarşısındakı məsuliyyətini xüsusi vurğulamağa çalışan Venizelos sübut etməyə çalışırdı ki, Patriarxlıq yunanların deyil, türk dini təsisatı olduğundan Yunanıstanın bu məsələyə birbaşa təsiri ola bilməz (3, 90). Venizelos irəli sürdüyü bu arqumentin ağır nəticəsi barədə düşünməmişdi. Əgər Patriarxlıq son nəticədə İstanbulda qalmış olsaydı, ona gələcəkdə bu, təsisatın beynəlxalq xarakterinə zərbə vurmaq üçün onun bu fikri türklərin əlində əsas ola bilərdi.

Venizelosun irəli sürdüyü arqumentdəki mənanı başa düşən Kerzon yunanların məsələni bu yolla həll etməsinə olan narazılığını məxvi surətdə bildirmişdi (3, 90). Britaniya nümayəndə heyəti ilk gündən bildirmişdi ki, bu qədim təsisat pravoslav dininin simvoludur və Patriarxlığın İstanbuldan çıxarılması nəinki pravoslav dini hisslərə, həmçinin bütün xristian dünyasının dini hisslərinə toxunmuş olardı (3, 90). ABŞ nümayəndə heyəti də eyni mövqeyi nümayiş etdirirdi. Yalnız fransız nümayəndə heyəti patriarxlığın İstanbuldan çıxarılmasına daha az etiraz edirdi (3, 90).

Bir-birinə kəskin şəkildə zidd olan bu fikirlər ucbatından əhalinin yerdəyişməsi komissiyasının sədri Montaqna bu çıxılmaz vəziyyətin həllini tapmaqda aciz idi. Patriarxlıq məsələsində onun mövqeyi qərəzsiz deyildi. Lozan danışıqlarının gedişində Montaqna ilə «xüsusi əlaqələr» qurmağı bacaran Rıza Nura görə İtalyan diplomatı yunanları qətiyyən xoşlamırmış (6, 1047). Patriarxlığın taleyi məsələsində Montaqna Yunanıstanın tutduğu mövqeyi cəfəng mövqe adlandırır və hesab edirdi ki, Patriarxlığın yerinin dəyişdirilməsi hər iki tərəfin razılığa gəldiyi anlaşmanın sonu üçün çox da baha başa gəlməyəcəkdir (3, 90).

Montaqna açıq surətdə bəyan edirdi ki, Türkiyənin Patriarxlığı ləğv etmək hüququ vardır və yunan nümayəndələrinin bu məsələ ətrafında türklərin fəaliyyətinə etiraz etməyə səlahiyyətləri yoxdur (3, 90). Məxvi görüşdə onun hətta Patriarxlığın çıxarılması məsələsində İsmət İnönünün möhkəm dayanmasını təkidlə bildirdiyi belə məlumdur (3, 90).

Göründüyü kimi, Montaqna Patriarxlığın İstanbuldan çıxarılması məsələsinə İta-

liyanın siyasəti üçün maraq doğuran məsələ kimi baxırdı. Vatikan Fənərin taleyinə əsla laqeyd münasibət bəsləmirdi. Kenterberi arxiyepiskopunun Kerzona bildirdiyi kimi Patriarxlığın iflic halına düşməsinə «Vatikan acımaqdansa, bundan daha çox məmnunluq duyurdu». Kenterberi arxiyepiskopu öz məktubunun sonunda yazırdı ki, katolik kilsəsinin belə kəskin ixtilaflara düçar olması çox kədərli bir haldır (3, 91). Buna oxşar mövqe anqlikan kilsəsinin yüksək rütbəli üzvü və KeNterberi arxiyepiskopunun Yaxın Şərq məsələsindəki müşaviri olan C.A.Duqlas tərəfindən də bildirilmişdi. O, yazırdı ki, Yaxın Şərq haqqında azacıq məlumatı olan hər bir kəs şübhə edə bilməzdi ki, Roma Fənərə qarşı açıq düşmənçilikdədir (3, 91). Deyilənlərdən aydın olur ki, Montaqnanın bu məsələ barəsində mövqeyinin müəyyənləşməsində Vatikanın təsiri olmamış deyil. Lakin o da mümkündür ki, türk nümayəndə heyəti məxvi görüşlərdə belə təsir bağışlamış olsunlar ki, guya onlar Patriarxlığın çıxarılması əvəzində böyük sayda yunan əhalisinin İstanbulda qalmasına razılıq verəcəklər. Görünür, Montaqna ümid edirmiş ki, türk nümayəndə heyəti 1922-ci ilin sentyabr və oktyabr aylarında baş verən hadisələr zamanı İstanbulu tərk etmiş təqribən 30 min yunanın qaytarılmasına razı olacaqdır. Montaqna həm də ümid edirdi ki, əgər Patriarxlıq məsələsində türklərin tələbləri ödənilərsə, onda türklər Pendikin 15 min nəfərlik yunan əhalisinin öz yerlərində qalmasına razılıq verəcəklər (3, 91). İstanbulun mərkəzi hissəsindən kənarda olsa da yunanların yaşadığı hissə şəhərin ictimai-iqtisadi həyatında mühüm rol oynayırdı (14, 314).

Dekabrın 26-da Fransa nümayəndə heyəti təklif etdi ki, Patriarxlıq özünün bütün qeyri-dini imtiyazlarından imtina etməli və özünün tarixi yeri olan Fənərdə qalmaqla xalis dini funksiyalar yerinə yetirməlidir. Belə olardısa Patriarxlıq pravoslavlığın mənəvi mərkəzi olmaq mövqeyini də qoruyub saxlayardı. İngiltərə və Yunanıstan nümayəndə heyətləri bu təklifə razı olduqlarını etiraf etdilər. Lakin türklər bu təklifə öz etirazlarını bildirdilər (3, 92).

Türkiyə nümayəndə heyətinin bu məsələdə öz mövqelərində təkid etmələrinə görə alt komissiyada müzakirələr dayandırıldı və Patriarxlıq məsələsi konfransın əsas komissiyasında müzakirə olundu. Əsas komissiyada Patriarxlıq məsələsi yenidən 1923-cü il yanvarın 10-da müzakirə olundu. Müzakirələr zamanı türk nümayəndə heyəti müttəfiqlərin birgə müqaviməti ilə rastlaşdı. Üstəlik pravoslav Balkan bloku da bu məsələdə mühüm rol oynadı. Belə ki, Rumıniya nümayəndəsi Diamandi türklərə xatırlatdı ki, müstəqil və özünü idarə edən Rumıniya kilsəsi mənəvi-dini tellərlə ümumdünya Patriarxlığı ilə bağlıdır. O, sonra əlavə etdi ki, əgər Patriarxlıq əleyhinə son tədbirlər tətbiq edilərsə, onda rumın xalqının dini şüuru zədələnmiş olardı (14, 325-326). Duamandi əsrlərdən bəri davam edən Patriarxlıq haqqında dini hissləri qıracaq bir qərar qəbul edilməməsini xahiş etdi (9, 296).

Serb nümayəndəsi Rakiç də «türk nümayəndə heyətindən Patriarxlığın öz ənənəvi yerindən çıxarılmamasını xahiş etdi və bildirdi ki, Patriarxlıq insanlığa böyük xidməti olmuş müəssisələrdən biridir. Onun ortadan qalxması mədəniyyətin bir hissəsinin yox olması təsirini verəcəkdir... Patriarxlıq İstanbulda xilafətdən də əvvəl mövcud olmuşdur. Patriarxlığa yer verilməsinə Türkiyənin əks çıxması müasir dövlətlər arasında yer tutmaq istəyən Türkyənin xeyrinə olmaz» (14, 326). Nəhayət, Kerzon xəbərdarlıq etdi ki, əgər Patriarxlıq İstanbuldan çıxarılsa, onda bütün sivil dünya vətəndaşlarının şüurunda şok yaranar (3, 92). Müzakirələrin sonunda türk nümayəndə heyəti özlərinin ilkin tələblərindən geri çəkildilər. İsmət İnönü Patriarxlığın Fənərdə qalmasına razılıq vermək barədə şifahi öhdəlik götürdü. Bunun müqabilində Patriarxlığın bütün siyasi və qeyri-dini atributları ləğv edilməli idi (3, 92). Beləliklə, Rıza Nurun Lozanda yeganə ən emosional mövzu adlandırdığı məsələ öz həllini tapdı (6, 1076). Montaqna bildirirdi ki, Patriarxlığın taleyi məsələsi əhalinin yerdəyişməsi ilə məşğul olan alt komissiyanın 26

toplantısından 20-də müzakirə edilərək, bu komissiya üçün saysız-hesabsız çətinliklər törətmişdir (3, 92).

Türk nümayəndə heyətinin Patriarxlıq məsələsində tutduğu mövqe də maraq doğurur. Belə ki, hər cür səlahiyyətə, o cümlədən bu və ya digər məsələdə güzəştə getmək səlahiyyətinə malik olan türk nümayəndə heyətinin başçısı İsmət İnönü son ana qədər Patriarxlıq məsələsində inad göstərmişdir. Lakin Patriarxlıqla bağlı sazişin imzalanmasından bir qədər əvvəl İsmət paşa aşağıdakı bəyanatı vermişdir: «Biz yunanların və digər ünsürlərin məzhəblərinə tamamilə hörmət göstəririk və onların kilsələrinə əvvəlki kimi riayət edəcəyik. ....Ancaq Patriarxlıq təsisatı hüquqi cəhətdən dəyişəcəkdir. Patriarxlığın daxili məclisləri... artıq indiki şəkildə qala bilməz... Patriarxlıq dövlətin indiki sərhədlərinə və yunanların ancaq İstanbulda ola bilmələrinə görə forma və mahiyyətcə dəyişmək məcburiyyətindədir. Patrik əfəndinin artıq İstanbulda işi yoxdur. Bu bir şəxs məsələsi deyildir. Bu bir təsisat məsələsidir və bu təsisat dediyimiz səbəblərə görə hökmən dəyişməlidir» (16, 264). 1923-cü il yanvarın 10-da səhər saat $10^{30}$-da Fənərin heç bir şərtlə Türkiyədə qalmayacağını bildirən İsmət İnönü gözlənilmədən yarım saat sonra öz mövqeyindən geri çəkilərək Kerzona bildirdi ki, o, Patriarxlığın çıxarılması tələbindən geri çəkilir (11, 304). Patriarxlığın qorunub saxlanılmasına nail olunmasına baxmayaraq, yunan tərəfinin nisbi uğurunu qorumaq üçün lazım olan şərtlərə təminat verilmədi. Danışıqların gedişində zəif mövqeyə malik olduqlarından yunan nümayəndələri Fənərin gələcək statusu barəsində türklərdən yazılı öhdəçilik almağa nail ola bilmədilər (3, 93). Onlar bu təsisatın müasir türkiyədə mövcudluğunu davam etdirmək üçün lazım olan aydın, dəqiq şərtlərin qəbul edilməsində təkid edə bilmədilər. Rıza Nurun öz memuarlarında göstərdiyi kimi türklər ilk əvvəldən Patriarxlığın çıxarılmasını tələb etməklə danışıqların son mərhələsində sadəcə öz ilkin tələblərindən geri çəkilməklə barışdırıcı kimi görünməyi planlaşdırmışdılar. Türk nümayəndə heyətinin iddia etdiyi kimi, o mərhələyə qədər yunanlar növbəti diplomatik alçaldılmadan əziyyət çəkəcəklərindən ehtiyat etdiklərindən onlar türklərin şifahi öhdəliyi ilə razılaşmalı oldular (6, 1076-1077). Beləliklə, bu öhdəliyi əsas forma kimi saxlamaqla, türklər özlərinin razılıqlarını mümkün olan ən dar mənada şərh etmə azadlığını özlərində qoruyub saxlamağa nail oldular.

Lakin türk tarixçilərindən bəziləri Lozan konfaransında İsmət İnönü və Rıza Nurun Patriarxlıq məsələsində davranışlarını tənqid edirlər. Belə ki, Qədir Misiroğlu yazır ki, «Patriarxlıq məsələsinin müzakirə olunduğu ikinci komissiyanın protokolları göstərir ki, İsmət İnönü və Rıza Nur bu məsələdə türk mənafelərini müdafiə etsələr də, həmişə eyni davranışda olmamışlar. Rıza Nurun xatirələrindən də görünür ki, o, Patriarxlıq məsələsindən sövdələşmək üçün istifadə etmişdir» (12, 327). Rıza Nur öz xatirələrində Patriarxlıq məsələsində İngiltərə nümayəndə heyəti ilə sövdələşdiyini asıqca etiraf edir (7, 135-142).

Patriarxlıq məsələsində İngiltərənin mövqeyi də ciddi maraq doğurur. İngiltərə nümayəndə heyəti bu məsələdə möhkəm mövqedə idi. Patriarxlıq məsələsində İngilis siyasəti Türkiyə məsələsində ekspert olan Rayan tərəfindən irəli sürülən iki memorandumda bildirilmişdir (3, 93). Digər tərəfdən anqlikan kilsəsi kəskin şəkildə Rayanın irəli sürdüyü təkliflərin əleyhinə idi. 1922-ci il noyabrın 10-da Xarici işlər nazirliyinə göndərdiyi müfəssəl memorandumda Lambet sarayı hətta Fənərə əlavə ərazi statusu verməyi belə işləyib hazırlamışdı (3, 93). Patriarxlıq məsələsində Endryu Rayanın istifadə etdiyi təsir vasitələrindən qəzəblənən Kenterberi yepiskopunun Yaxın Şərq məsələsindəki məsləhətçisi Roma katoliki olan C.A.Duqlas qabaqcadan xəbər verirdi ki, bir halda ki, «Lord Kerzon hər şeyə ancaq cənab Rayanın nəzərləri ilə baxır, onda mənə elə gəlir ki, Patriarxlıq məsələsində... müəyyən yazılı təminatlar əvəzində təslimçilik olma-

lıdır» (3, 94).

Bu fikirlər özünün Böyük Britaniyadakı nümayəndəsi Tiateria arxibişopu olan Germanos Strinopulos vasitəsilə öz mövqeyini Lambet sarayına çatdıran Patriarx Meletiosun fikirləri ilə üst-üstə düşür. Sonralar Lozanda gedən danışıqlarda iştirak edən Germanos Patriarxlıqla bağlı yunan nümayəndə heyətinə təkliflər verirdi (3, 94).

Patriarx Meletios Patriarxlığı nəinki özünün ənənəvi imtiyazları ilə Fənərdə qoruyub saxlamağa çalışırdı. O, hətta Lozan müqaviləsində nəzərdə tutulan sərt təminatlarla belə öz mövqeyini qoruyub saxlamağa cəhd edirdi. Lakin Lozandakı yunan nümayəndəsi Dimitrios Kaklamanosun da göstərdiyi kimi Anadolu müharibəsində məğlub tərəf olan Yunanıstan qalib tərəf olan Türkiyəyə geniş dünyəvi səlahiyyətləri olan Patriarxlığın olmasını şərt kimi irəli sürə bilməzdi. Belə tələblər Türkiyənin Patriarxlığın qovulması haqda irəli sürdüyü fikirləri intensivləşdirilmiş olardı. Digər tərəfdən Kerzonun Türkiyədəki xristian azlıqlar və Patriarxlıq məsələsində güzəştə getməyə razı olduğu hiss olunurdu. O, həm də Mosul kimi Britaniya maraqları üçün həyati əhəmiyyətə malik olan mühüm məsələdə türklərlə razılığa gəlmək üçün öz təzyiq vasitələrini qoruyub saxlayırdı. Fransa Patriarxlıq məsələsində o qədər də həvəs göstərmirdi. Fransız mənafelərinə toxunan məsələlərdə sərt mövqe nümayiş etdirilməsi ilə yanaşı Fransa özünün ikinci dərəcəli saydığı məsələlərdə mülayim görünürdü.

Müttəfiqlərin mövqeyini bilən və növbəti yunan-türk qarşıdurmasının qarşısını almağa çalışan Yunanıstan İsmət İnönünün şifahi öhdəliyi ilə razılaşmalı oldu.

Lakin Türk ictimai rəyi yanvarın 10-da əldə edilmiş razılaşmadan narazı qaldı. «Tevhidi Efkar» qəzeti türk nümayəndə heyətinin hərəkətinə öz təəccübünü bildirdi. Türkiyə hökumətinin tezliklə bu qərarı dəyişəcəyinə inandığını bildirərək, qəzet əlavə edirdi ki, «...Nə Lozan konfransı, nə anqlikan kilsəsi, nə də hər hansı dövlət Patriarxlığın çıxarılmasına mane ola bilməz və ya yunanları layiq olduqları cəzadan qoruya bilməzdi (3, 94). İstanbulun yunan dilli mətbuatı Lozan danışıqlarından sevinclə yazırdılar. Digər yunan dilində çıxan mətbuat kimi Patriarxlığın orqanı da Lozan konfransının Patriarxlıq haqqındakı qərarını bəyənirdi. Lakin Patriarxlıq məsələsində türk xalqının ictimai rəyi kəskin idi. Buna görə İsmət İnönü 1923-cü il fevralın 16-da İstanbulda keçirdiyi mətbuat konfransında məsələnin həllinə dair məlumat verməyə məcbur oldu. O, bu məsələdə öz fəaliyyətinə Fənərin siyasi fəaliyyətini davam etdirəcəyi təqdirdə Türkiyənin bu təsisatı ölkədən qovmaq hüququna malik olduğunu bildirməklə haqq qazandırdı (2, 218-220).

## *ƏDƏBİYYAT*

1.Ahmet Temiz. Velid Ebuzziyanın Lozan mektubları, İstanbul, 2007.
2.Ali Naci Karacan. Lozan Konferansı və İsmət Paşa, Ankara, 1993.
3.Alexis Alexandris. The Çreek Minority of İstanbul and Çreek-Turkish Relations 1918-1974, Athens, 1983.
4.Atatürkün Söylev ve Demecleri, Ankara, 1954.
5.Bilal N. Şimşir. Lozan Telqrafları, Türk Diplomatik Belgelerinde Lozan Barış Konferansı, cilt1, Ankara, 1990 (kasım 1922-şubat 1923), cilt 1, Ankara, 1990.
6.Dr. Rıza Nur. Hayat və Hatıratım. Cilt III- İstanbul 1967-1968.
7.Dr. Rıza Nur. Lozan Hatıraları. İlaveli İkinci Baskı Türkiye Böyük Millet Meclisinin gizli Çelse Zabıtları ilave edilmiştir. İstanbul, 1991.
8.Dr. Rıza Nur, Cozeph C.Crew. Lozan Barış Konferansının Perde Arkası (1922-1923), İstanbul, 2003.
9.Cemil Bilsel M Lozan. Cilt II, İstanbul, 1998.
10.İsmet İnönü. Hatıralar. 2-ci kitap, Ankara, 1987.
11.Howard Harry N. The Partition of Turkey a Diplomatic History 1913-1923. New-York,

Tarix və onun problemləri, №3 2009
1966.
12.Kadır Mısıroğlu. Lozan Zafer mi, Hezimet mi? Cilt 3, İstanbul, 1992.
13.Lozan Barış Konferansı, Tutanaklar, Belgeler, çeviren: Seha L. Meray, cilt 1, kitap 2, Ankara, 1969-1970.
14.Lozan Barış Konferansı, Tutanaklar, Belgeler, çeviren: Seha L. Meray. Takım 1, cilt 1, kitap 1, Ankara, 1969.
15.Psomiades H. C. The Eastern Question: The Last Phase, Thessaloniki, 1968
16.Şahin Süreyya Musa. Fener Patrikhanesi ve Türkiye. İstanbul, 1996.

**М.Б.ФАТАЛИЕВ**

*профессор Бакинского Государственного Университета*

**ВОПРОС О ПАТРИАРХАТСТВЕ НА «ЛОЗАННСКОЙ КОНФЕРЕНЦИИ.**

В статье говорится, что вопрос о Патриархатстве на Лозаннской конференции был важным вопросом для турецкой делегации. Во время обсуждения этого вопроса на заседаниях комиссий Лозаннской конференции представители турецкой делегации говорили, что Патриархатство со времени своего существования в Турции занималось политическими делами, стремилось «играть роль государства в государстве». Поэтому турецкая делегация стремилась ликвидировать Патриархатство или добиться переезда ее заграницу. Но представители стран Антанты и Греции выступали против предложений Турецкой делегации о Патриархатстве. В первую очередь против ликвидации или переезде Патриархатства заграницу выступал председатель конференции лорд Керзон. Этот вопрос долго обсуждался на заседаниях конференции. В конце представители союзников во главе с лордом Керзоном предложили, что Патриархатство останется в Стамбуле с условием, что впредь оно будет заниматься только религиозными делами. Все прежние права и прерогативы Патриархатства ликвидировались. Турецкая делегация согласилась с этим положением Патриархатства.

**M.B.FATALIYEV**

*professor of Baku State Universitet*

**THE QUESTION ABOUT PATRIARHAT ON « LAUSANNE CONFERENCES**

In article is spoken, that the question about Patriarhatism on Lausanne conferences was the important question for Turkish delegation. During discussion of this question at sessions of commissions of Lausanne conference representatives of Turkish delegation spoke, that Patriarhatism since time of the existence in Turkey was engaged in political affairs, aspired « to play a role of the state in the state ». Therefore the Turkish delegation aspired to liquidate Patriarhatism or to achieve crossing its abroad. But representatives of the countries Antanta and Greece opposed offers of Turkish delegation about Patriarhatism. First of all against liquidation or crossing abroad Patriarhatism chairman of conference Lord Kerzon acted. This question was long discussed at sessions of conference. In the end representatives of allies led by Lord Kerzon offered, that Patriarhatism remains in Istanbul with one condition, that henceforth it will be engaged only in religious affairs. All the former rights and prerogatives Patriarhatism were liquidated. The Turkish delegation has agreed with this position Patriarhatism.

*Rəyçi: t.e.d. T.Hacıyev.*

***BDU-nun «Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi» kafedrasının 13 sentyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***